*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s.163-167*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p.163-167*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с.163-167*

**UOT: 902:930.25**
https://doi.org/10.30546/670832.2025.01.1215

# Tarixi tədqiqatlarda arxealojı qazıntıların və yazılı mənbələrin rolu

**Müəllif(lər):**

**Rəsul Bağırov**
Naxçıvan Dövlət Universiteti
dosent
**E-poçt:** bagirovresul11@gmail.com
https://orcid.org/0009-0001-0812-6682

**Açar sözlər:** mənbələr, mixi yazılar, yaşayış məskənləri, daş kitabələr, arxealoji abidə, yazılı mənbələr

**Annotasiya.** Məqalənin yazılmasında əsas məqsəd Azərbaycanın qədim dövrlər tarixini arxeoloji və yazılı mənbələr əsasında ətraflı şəkildə əsaslandırmaqdır. Yazılı mənbələr sinifli cəmiyyət yarandıqdan sonra meydana gəlmişdir. Tarixə dair sənədli mənbələrin üçüncü tipini yazılı abidələr təşkil edir. Tarixin tədrisində sənədli yazılı və maddi mənbələrdən istifadə edilməsinin böyük təhsil-tərbiyəvi əhəmiyyəti vardır. Bu sənədlər şagirdlərlə dövrün dili ilə danışaraq hadisəyə tənqidi münasibətin yaratmasını göstərir. Tarixi yazılı sənətləri şərti olaraq bir neçə qrupa bölünür. Azərbaycan yer üzünün ən qədim mədəniyyət mərkəzlərindən biridir. Onun tarixi ərazisinin sakinləri minilliklər ərzində zəngin mədəni irs qoyub getmişlər. Tarixi tədqiqatlarda yazılı qaynaqların böyük əhəmiyyəti var. Tarixi qaynaqlar – maddi və yazılı abidələr əsasında öyrənilir. Arxeoloji qazıntılar nəticəsində tarixi hadisələrə verilən elmi qiymətlərin və öyrənilən materialarla dair çıxarılan digər nəticələrin məktəblilər üçün inandırıcı etmək lazımdır. Uşaqlar üçün həqiqi kimi qəbul etdikləri va mexaniki surətdə əzbərlədikləri ümumi müddalar deyil, fəal təfəkkür və emosional hisslər nəticəsində gəlib çıxdıqları nəticələr daha inandırıcı olur.

## The role of archaeological excavations and written sources in historical research

**Author(s):**

**Rasul Baghirov**
Nakhchivan State University
Associate Professor
**E-mail:** bagirovresul11@gmail.com
https://orcid.org/0009-0001-0812-6682

**Key words:** sources, cuneiform inscriptions, settlements, stone inscriptions, archaeological site, written sources

**Abstract.** The main goal of writing the article is to substantiate the history of ancient times of Azerbaijan in detail on the basis of archaeological and written sources. Written sources appeared after the emergence of class society. The third type of historical documentary sources are written monuments. The use of documentary written and material sources in the teaching of history has great educational significance. These documents show the creation of a critical attitude to the event by speaking to the students in the language of the time. Historical written arts are conventionally divided into several groups. Azerbaijan is one of the oldest cultural centers on earth. The inhabitants of its historical territory have left a rich cultural heritage for millennia. Written sources are of great importance in historical research. Historical sources are studied on the basis of material and written monuments. As a result of archeological excavations it is necessary to make the scientific values given to historical events and other conclusions about the studied materials believable for schoolchildren. For children the conclusions that they get as a result of active thinking and emotional feelings are more convincing than general terms that they accept as true and mechanically memorize. In the end it was concluded that the article reflects the detailed study of archaeological excavations and written sources in the study of the history of Azerbaijan.

## Роль археологических раскопок и письменных источников в исторических исследованиях

**Автор(ы):**

**Расул Багиров**
Нахчыванский государственный университет
доцент
**Э-почта:** bagirovresul11@gmail.com
https://orcid.org/0009-0001-0812-6682

**Ключевые слова:** источники, клинописные надписи, поселения, каменные надписи, археологический памятник, письменные источники

**Аннотация.** Основная цель написания статьи – детально обосновать историю древних времен Азербайджана на основе археологических и письменных источников. Письменные источники появились после возникновения классового общества. Третий тип исторических документальных источников - письменные памятники. Большое воспитательное значение имеет использование документальных письменных и материальных источников в преподавании истории. Эти документы свидетельствуют о формировании критического отношения к событию путем общения со студентами на языке того времени. Историческое письменное искусство условно делят на несколько групп. Письменные источники имеют большое значение в исторических исследованиях. Исторические источники изучаются на основе материальных и письменных памятников. В результате археологических раскопок необходимо сделать правдоподобными для школьников научное значение, придаваемое историческим событиям, и другие выводы об изученных материалах. Для детей выводы, к которым они приходят в результате активного мышления и эмоциональных переживаний, более убедительны, чем общие понятия, которые они принимают за истинные и механически запоминают. В итоге был сделан вывод, что статья отражает детальное изучение археологических раскопок и письменных источников в изучении истории Азербайджана. Азербайджан – один из старейших культурных центров на земле. Жители его исторической территории на протяжении тысячелетий оставили богатое культурное наследие.

**Giriş.** Azəbaycanın Naxçıvan ərazisində yerləşən II Kültəpə yaşayış yerində aparılan araşdırmalar zamanı qədim şəhər dövləti üçün xarakterik olan xüsusiyyətlər aşkar edilmişdi. V.H.Əliyevin apardığı araşdırmalar göstərmişdir ki, II Kültəpə e.ə. II minilliyin əvvəllərində ətrafı divarla əhatə olunmuş yaşayış yerinə çevrilmişdir. Narın qalanın divarları 2-2,5 m qalınlığındadır. O, dördkünc formalı bürclər və kontrforslarla möhkəmləndirilmişdir. Arxeoloji qazıntılar zamanı yaşayış yerinin, narın qalasının planı tamamilə müəyyənləşdirilmiş, onun ilkin şəhər üçün xarakterik olan strukturu aşkara çıxarılmışdır. Narın qalanın proporsional arxitekturası, binaların küçələr boyunca yerləşməsi yaşayış yerinin əvvəlcədən müəyyən edilmiş plan asasında tikildiyini deməyə imkan verir. Hakim təbəqənin və varlıların yaşadığı Narın qalanın yaşayış yerinin digər hissələrindən qalın divarla ayrılması cəmiyyətdə kəskin sosial ziddiyyətlərin olduğunu göstərir. Orta tunc dövrünə aid yaşayış yerlərinin tədqiqi bu dövrdə Naxçıvanda güclü tayfa ittifaqlarının formalaşdığını, şəhər dövlətlərinin yarandığını göstərir [8, s.369-372].

Azərbaycanda erkən tayfa ittifaqlarının yaranması, e.ə. III minillikdə Azərbaycanda müxtəlif ad daşıyan dövlət qurumlarının meydana gəlməsi ilə müşahidə olunur. Sosial və mülki bərabərsizliyin yaranması zəminində tayfa ittifaqları getdikcə güclənir, maldarlığın və əkinçiliyin inkişafi nəticəsində tayfa başçıları əllərinə sərvət toplayır. Bütün bunların sosial-iqtisadi inkişaf zəminində intişarı heç şübhəsiz ki, qonşu tayfalarla münaqişələrin artmasına və basqınlara səbəb olmuş, elə həmin səbəbdən də müdafiə sədləri ilə möhkəmləndirilmiş şəhər qalalar tikilmişdi. Ərazidə müdafiə qalalarının çoxluğu yerli tayfaların əminəmanlıq siyasətini əks etdirir. Təbii ki, Azərbaycan ərazilərində uzun illər aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunan dəyərli faktlar (tunc dövrü): maddi-mədəniyyət abidələri (yaşayış yerləri, ibadətgahlar, qalalar, möhtəşəm kurqanlar, dəfn adətləri və s.) mixi yazılı mənbələrdə olan məlumatlar (ərazidə gedən döyüşlər, əldə olunan qənimətlər), abidələrdə izlənilən sosial bərabərsizlik, güc strukturlarının mövcudluğu, əhalinin sıxlığı (qəbir abidələrində II minillikdə sinifli cəmiyyətin yaranması ilə bağlı izlənilən əşyavi mənbələr), sənətkarlığın, incəsənətin, fəlsəfi duyumların yüksək səviyyədə inkişafi (dulusçuluq, metalişləmə sahəsində), təsərrüfatın inkişafı (oturaq əkinçilik və maldarlıq), maddi-mədəniyyət nümunələri içərisində təsadüf olunan müxtəlif tip məişət və dini xarakterli əşyalar, tuğ bayraqlar, möhürlər, silahlar heç şübhəsiz ki, ərazidə möhkəm tayfa birliklərinin yaranmasından, yüksək mədəniyyət zəminində qurulan şəhər və dövlətlərin olmasından xəbər verir. Göründüyü kimi, Azərbaycanın qədim dövr dövlətçilik ənənələrinin tədqiqində əsas mənbələr arxeoloji və yazılı mənbələrdir. Arxeoloji mənbələr nəticəsində əldə olunan dəyərli faktlar, mixi yazılı mənbələrdə olan məlumatlar Azərbaycanın hərb və dövlətçilik tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan tarixi üzrə yazılı qaynaqlar arxeoloji materillardan fərqli olaraq Azərbaycanın yalnız sosial-iqtisadi, maddi-mənəvi mədəniyyət tarixi-haqqında zəngin materiallarla xarakterizə olunur. Yazılı mənbələr aşağıdakı hissələrdən ibarətdir:

Səlnamə tipli mənbələr, memuar xarakterli mənbələr, sənətli materiallar. Səlnamə tipli qaynaqları dil prinsiplərinə uyğun olaraq bir neçə qrupa bölmək olar: mixi yazı parçaları, Antik, tarixi-coğrafi ədəbiyyat, gürcü dilli qaynaqlar, yerli qaynaqlar. Orta əsr ərəb-fars və türk dilli qaynaqlar.

**Materiallar və metodlar**. Yazılı qaynaqların böyük bir qismi səlnamə xarakterli qaynaqlardan ibarətdir. Nəsrani qaynaqların xronoloji baxımdan birinci qismi hərbi səlnaməli mənbələrlə Şumer-Akkad, Aşşur, Urartu mixi yazı parçaları ilə təmsil olunmuşdur. Hərbi yürüşlər zamanı hökmdarların diktəsi ilə yazılan bu yazı parçalarında adətən hadisələr bir tərəfli təsvir olunmuşdur. Bununla belə mixi yazılarda Azərbaycan ərazisində erkən etnik birliklər, dövlətlər, onların qonşuları ilə sosial-iqtisadi və siyasi münasibətləri, maddi və mənəvi dünyalar haqqında maraqlı məlumatlar öz əksini tapmışdır.

Cənubi Azərbaycan və həmsərhəd ərazilərin tayfaları haqqında məlumat verən ən qədim qaynaqlar Şumer-Akkad mətnləridir. Şumer və qədim Akkad dillərində tərtib olunmuş bu kitabələr e.ə. II minilliyə və II minilliyin başlanğıcına aiddir. Bu mətnlərin meydana çıxması əsasən Şumer və Akkad çarlarının Zaqros dağları zona-

sına yürüşlərinə, habelə kuti hakimlərinin Cənubi Beynənnəhreyindəki bir əsirlik hökmranlığına borcludur. Ən ilkin yazılı qaynaqlar sırasında lulubi hökmdarlarının bir neçə qısa yerli kitabələrini də xatırlamaq lazımdır [1, s.8].

Mixi yazıların oxunması İran çarlarının yazılarının nəşrindən sonra mümkün olmuşdur. İlk İran kitabələri Əhəməni çarı III Daradan bizə gəlib çatmışdır, amma bu yazı midyalılar dövründə də labüddür. Akkad yazısının açılmasına İranda Kermanşah yaxınlığında Büsutun qayası üzərində aşkar olunmuş, üç dildə (qədim fars, elam və babil) yazılmış mətnlərdən sonra başlamışdır. Sonralar geniş kəşfiyyat və arxeoloji qazıntılar zamanı ayrı-ayrı ərazilərdə qayaüstü yazılar və bir sıra siyasi-iqtisadi xarakterli mətnlərlə yanaşı həm də ədəbi (dastan, bayatı, əfsanə), fəlsəfi, dini etiqad mətləvi (dua, fala baxma) aşkar edilmişdir.

Hal-hazırda qədim dillərdə - Şumer, Akkad (aşşur-babil), elam kitabələri, huri, ebla, Urartu və s. dillərdə yazılmış mətnlər maraq doğurur. Mətnlər dəfələrlə müasir dillərə tərcümə edilmiş və nəşr olunmuşdur.

Tədqiqatlar göstərir ki, Azərbaycanın qədim tarixi bütün şərq ölkələrinin tarixi ilə sıx şəkildə əlaqəlidir. Aşşur-Babil mənşəli yazılı mənbələr əsasən Urmiya gölü ətrafındakı əraziləri işıqlandırır [5, s.6].

Su və turukki tayfaları haqqında bəzi mənbələrdə kifayət qədər məlumat olsa da, şimal bölgələri haqqında mixi yazılı mənbələrdə çox az məlumat verilir. Şumer-Akkad, Aşşur və Urartu mixi yazılarından məlumdur ki, erkən Şumer dövlətləri qədim Azərbaycan (Urniya gölü hövzəsi) ərazisi ilə siyasi və iqtisadi əlaqələr yaratmışlar (e.ə. III-I minillikdə).

Bəzi Şumer dastanları, bu haqda məlumat saxlamışdır. Akkad hökmdarlarının səlnamələrində Azərbaycan ərazisində yaşayan tayfaların İkiçayarasına hücumlarını dəf etmələri haqqında məlumat yer almışdır. Həmin tayfalar ilə döyüşlər də Akkad hökmdarlarının səlnamələrində öz əksini tapmışdır. Aşşur hökmdarları Azərbaycanın qərb torpaqlarında, həmçinin, ərazinin daxilinə hərbi yürüşlər edir, ölkəni çapıb talayırdılar. Qədim Azərbaycan əraziləri barədə daha çox Aşşur mixi yazılı mənbələri məlumat verir [2, s.5-7].

“Avesta” mühüm mənbələrdən biridir. Zərdüştlük və onunla bağlı olan dini fəlsəfi sistemlər Cənubi Azərbaycan ərazisində min ildən xeyli artıq olan uzun bir dövr ərzində yayılmışdır.

E.ə. XIX əsrin sonu – XVIII əsrin birinci yarısında döyüşkən turukkilər mütəşəkkil hərbi-siyasi qüvvə kimi çıxış etmiş yarım əsr ərzində Aşşur hökmdarları ilə savaşlara girmiş, Aşşurun Şərqə hərbi təcavüzünün dayandıraraq tarixi Azərbaycan torpaqlarını işğal təhlükəsindən qurtarmışlar. Mari məktublarında türükki hökmdarı Lidayanın adı aşşurlara qarşı vuruşan türükki başçısı kimi xatırlanmışdır.

E.ə. XIV-XIII əsrlərə kimi kuti Lullubi, Su tayfaları ilə birlikdə trukkilər də assurların tez-tez baş verən yürüşlərinə qarşı birlikdə mübarizə aparırdılar. Bu tayfalar Azərbaycanın qədim tarixində mühüm rol oynamışlar. E.ə. I minilliyin başlanğıcında Azərbaycanda öz dövlətlərini yaradan mannalılar həmin tayfaların varisləri hesab olunur [3, s.15].

Azərbaycanın cənubunda, o cümlədən, Azərbaycan və Naxçıvanda türkdilli Kuti-Araz mədəniyyətinin daşıyıcıları türk dilli kuti, lullubi, su və turukki tayfalar olmuşlar. Bu tayfaların Urmiya hafizəsi və Mesopotomiyadakı fəaliyyəti ilə bağlı yazılı mənbələrin məlumatları e.ə. III minilliyin sonlarına aiddir. Tədqiqatlar e.ə. III-I minilliklərdən Cənubi Azərbaycan əhalisinin Kuti və Lullubilərdən ibarət olduğunu göstərmişdir. Bu tayfaların etnik baxımdan Elam və Zarqo-Elam dil qrupuna aid tayfalara yaxın olduğu, bu dövrdə Azərbaycanda Şumer dilinin yayıldığı qeyd edilmişdir. Naxçıvanın zəngin toponimikası da onların varlığından xəbər verir. Onlar arasında aparıcı rol kuti, lullubi, su və trukkilər oynamışdır.

**Nəticə və müzakirə.** Naxçıvan qədim sivilizasiya mərkəzlərindən aralı olduğu üçün bu ərazilərdəki siyasi qurumlar haqqında yazılı mənbələrdə məlumat qalmamışdı [8, s.368].

Solmaz Qaşqayın “Qədim Azərbaycan mixi yazılı” mənbələrdə, kitabında Azərbaycan sakinlərinin yaşadığı ərazilər haqqında məlumat verən dəyərli mənbələr mövcuddur. Həmin mənbələrdə M.M.Meşşaninovun gölün sağ və çöl sahillərində yerləşdiyi 23 çar ölkələr sırasına Solmaz Qaşqayın kitabına istinadən Göyçə gölünün Şərqində yerləşən daha bir neçə ölkə Alistu, Arkukiu Amuşa və İda (müasir Sisian ətrafında) Aza (müasir Armavır yaxınlığında Araz çayının sol sahilində Ayanianu, Culfa rayonu) İlandağ

ərazisində Arsikuka (Culfa rayon İlandağ ərazisində), Arsini (Culfa rayon İlandağ ərazisində müasir Ərəzin kəndinin adında saxlanılmasını demək olar) ölkələri də daxil etmək məqsədəuyğundur [4, s.69].

Antik yazıçılar Miletli Hekatey, Lampsaklı Xaron, Lidiyalı Ksanf, Hellanik və b. əsərlərində də Azərbaycan üzrə müəyyən məlumatlar var. E.ə. VI-V əsrlərin yunan yazıçısı, ən qədim coğrafi xəritə əlavə olunmuş məşhur "Yerin təsviri" əsərinin müəllifi Miletli Hekatey Cənubi Azərbaycanda məskunlaşmış matienlər tayfasının Arazboyu mülklərin Kaspi dənizi sahilində yaşayan hansısa katannların adını çəkir [1, s.9].

Məşhur Roma tarixçisi 35 kitabı və itib-batmış cildlərin bir qədər fraqmentləri qorunub saxlanılmış "Roma" tarixi əsərlərinin müəllifi Tit Livi Roma müdaxiləsi dövrü albanlar haqqında məlumatlar verir. İçərisində "Annalar" ("Səlnamələr") və "Tarixlər" kimi xüsusilə seçilən əsərin müəllifi məşhur romalı tarixçi Korneli Tasit qiymətli məlumat vermişdir. Onun əsərlərinin Romanın Qafqaz ölkələri, o cümlədən, Albaniya, habelə, Parfiya ilə münasibətlərdən bəhs edilən səhifələri müstəsna dərəcədə mühüm qaynaqdır.

M.Kalankaytuklunun "Alban tarixi" əsəri VII əsr Azərbaycan tarixi üzrə yerli original yazılı mənbədir. Mənbə dövrümüzə qrabar dilində gəlib çatmışdır. "Alban tarixi" əsərinin dövrümüzə qrobar dilində gəlib çatmasına baxmayaraq, onun orijinalının alban dilində yazılması ehtimal olunur. "Alban tarixi" əsərinin mənbəşünaslıq bazası olduqca geniş olmuş və əsər yerli yazılı və şifahi alban mənbələrindən başqa erməni, gürcü, yunan, roma, bizans və Suriyanı mənbələri əsasında tərtib edilmişdir. Qafqaz Albaniyası tarixi məktəbinin ikinci böyük siması XII-XIII əsr müəllifi Mxitar Qoş olmuşdur [7, s.111-112].

Türk dilli xalqlarda dövlətçilik ənənələrinin olduqca qədim tarixə malik olmalarına baxmayaraq, türk tarixi təfəkkürünün formalaşmaq və ilk türk yazılı abidələrinin yaranması erkən orta əsrlərə təsadüf edir. Türk xalqlarının erkən orta əsrlər dövrü tarixinin bərpası üçün mənbə məşhur "Kitabi-Dədə Qorqud" dastanlar toplusudur. "Kitabi-Dədə Qorqud" dastanlar toplusu qədim türkdilli xalqların, xüsusilə də oğuzların dini-mifoloji baxışlarının, sosial-iqtisadi həyatının, təsnifat və mədəniyyətinin öyrənilməsi, VI-VIII əsr siyasi və tarixi hadisələrin bərpası baxımından olduqca qiymətli mənbədir.

Qafqaz tarixinin orta yüzilliklər dövrünün öyrənilməsində ərəb mənbələrinin əhəmiyyəti olduqca böyükdür. Ərəb tarixçisi Ubeyd ibn Şəriyy əl Gürhumi ərəb işğalı zamanı Qafqazın etnik mənzərəsi haqqında qiymətli məlumat olduğunu qeyd etmişdir. Əl-Kufi, Ət-Təbəri Əl-Bəlazuri öz əsərlərində Qafqazın ərəblər tərəfindən işğalı və yerli xalqların ərəb ağalığına qarşı mübarizəsi, xüsusən Xurəmilər hərəkatı və Babək haqqında idarəçilik üsulu vergilər, Azərbaycan və Dağıstana ərəb tayfalarının köçürülməsi məsələlərindən bəhs etmişlər [9].

**Yekun nəticə.** Fars dilli qaynaqlarda XI əsrdən etibarən Qafqaz ölkələri ilə bağlı qiymətli əsərlərə rast gəlmək mümkündür. Bunların içərisində Səlcuq dövlətinin yaranması və dövlət quruluşu və idarəçilik qaydaları haqqında Nizam-ül-mülkün "Siyasətnamə", monqol yürüşləri və Elxani dövləti, Qazan xanın islahatları haqqında Fəzlullah Rəşidəddinin "Cəmi-ət-təvarix", XIV əsrdə Qafqazda baş verən hadisələr haqqında Həmdullah Qəzvinin "Nüzhatül-qülub" Səfəvi dövlətinin XVI əsr dövrü haqqında Həsən bəy Rumlunun "Əhsən ət-Təvarix", İsgəndər bəy Münsinin "Tarixi aləm arayi Abbasi" əsərləri xüsusi yer tutur.

Qafqazın Orta yüzilliklər dövrünün öyrənilməsi üçün Avropa qaynaqları çox qiymətlidir. Bu mənbələr əsasən XIII əsrin ortalarından sonrakı dövr tarixini öyrənmək üçün dəyərli informasiyalarla zəngindir. Venesiyalı səyyahlar Morko Polo və Ambroco Kontarini, Kastilya elçisi Klavixo, ingilis tarixi Antoni Cenikson, Venesiya elçisi V.Alessandri, alman səyyahı Adam Oleari, hollandiyalı Van Streys və digər müəlliflər Qafqaz haqqında digər mənbələrdə rast gəlinməyən xeyli məlumatlar vermişlər (9).

XVI əsrin ortalarından etibarən Rusiyanın Volqaboyunu işğal edib, Xəzər dənizinə çıxması və Qafqaz hüdudlarına yaxınlaşması ilə əlaqədar rus dilində olan mənbələrdə Qafaqaz region ilə bağlı məlumatlar verilir. Xüsusən XVII-XVIII əsrlərdə rus səyyah və diplomatlarının hərbçilərin Qafqazda baş verən ictimai-siyasi proseslər, social-iqtisadi vəziyyət haqqında çeşidli məlumatlar böyük əhəmiyyətə malikdir. Sonda belə bir nəticəyə gəlinmişdir ki, məqalədə Azərbaycan

tarixinin öyrənilməsində arxealoji qazıntıların və yazılı mənbələrin ətraflı şəkildə öyrənilməsi öz əksini tapmışdır.

**Ədəbiyyat**

1. Azərbaycan tarixi. Yeddi cilddə. I cild. – Bakı: Elm, – 1998. – 476 s.
2. Azərbaycan tarixi: ali məktəblər üçün dərslik. I cild. – Bakı: Çıraq, – 2011. – 719 s.
3. Azərbaycan tarixi: ali məktəblər üçün dərslik. – Bakı: Bakı Universiteti, – 2015. – 407 s.
4. Avşarova, İ.N. Azərbaycan ərazisinin arxeoloji və yazılı mənbələr əsasında tədqiqi tarixindən // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. – 2019. – s. 65-74.
5. Qaşqay, S. Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə. / S.Qaşqay. – Bakı: Təhsil, 2006. – 147 s. (AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu nəşri)
6. Qaşqay, S. Gədəbəy rayonunun tarixi abidələri haqqında // AMEA Tarix İnstitutu. – Bakı, 2009. – Cild 29. – s. 7–12.
7. Məmmədova, S. Mənbəşünaslığa giriş: dərs vəsaiti. / S.Məmmədova. – Bakı: Mütərcim, – 2008. – 220 s.
8. Naxçıvan abidələri ensiklopediyası. – Naxçıvan: AMEA Naxçıvan Bölməsi, –2008. – 519 s.
9. https://az.wikipedia.org/wiki

*Məqalə tarix üzrə elmlər doktoru, professor Hacıfəxrəddin Səfərli tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 14.01.2025, son daxilolma – 11.02.2025, qəbulolunma – 05.03.2025